

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 186 (21.087)

30 sentyabr 2014-cü il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiymətı 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Xəzəryanı Ölkələrin Dövlət Başçılarının IV Sammitində iştirak etmək üçün sentyabrın 29-da Rusiyanın Həştərxan şəhərinə işgüzar səfərə gəlib.

* * *

Sentyabrın 29-da Rusiya Federasiyasının Həştərxan şəhərində Xəzəryanı Ölkələrin Dövlət Başçılarının IV Sammiti keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Sammitdə iştirak edib.

* * *

Sentyabrın 29-da Həştərxanda keçirilən Xəzəryanı Ölkələrin Dövlət Başçılarının IV Sammiti çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyev, Rusiya Prezidenti Vladimir Putin, İran Prezidenti Həsən Ruhani, Qazaxıstan Prezidenti Nursultan Nazarbayev və Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədovun iştirakı ilə hökumətlərarası beştərəfli sazişlər imzalanıb.

* * *

Sentyabrın 29-da Həştərxanda işgüzar səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin görüşü olub.

* * *

Sentyabrın 29-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayevin Həştərxanda görüşü olub.




## Naxçıvanda kənd təsərrüfatı məhsullarının satışı yarmarkaları keçirilir

Muxtar respublikada ərzaq təhlükəsizliyinin təmin olunması istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. “2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı”nın uğurlu icrası daxili bazarın keyfiyyətli yerli məhsullarla təminatına, eləcə də istehsal olunan məhsulların satışına hərtərəfli şərait yaratmışdır. Son illər kənd təsərrüfatı məhsullarının satışı yarmarkalarının keçirilməsi də bu məqsədə xidmət edir.

Sentyabrın 27-də Naxçıvan şəhərindəki Mərkəzi bazarda kənd təsərrüfatı məhsullarının növbəti satış yarmarkası keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov yarmarkaya gəlmiş, alıcılar və məhsul istehsalçıları üçün yaradılan şəraitlə maraqlanmışdır.

Məlumat verilmişdir ki, yarmarkaya muxtar respublikanın özəl müəssisələrində istehsal olunmuş ərzaq malları və ayrı-ayrı rayonlardan gətirilmiş kənd təsərrüfatı məhsulları çıxarılmışdır. “2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı”nda nəzərdə tutulan tədbirlərin uğurlu icrası nəticəsində muxtar respublikada meyvə və tərəvəz məhsullarının istehsalı xeyli artmışdır. Yarmarkada yerli meyvə və tərəvəz məhsulları bolluq təşkil edirdi. Həmçinin burada muxtar respublikada istehsal edilən keyfiyyətli şirniyyatlar, müxtəlif meyvə quruları, balıq, ət və süd məhsulları da alıcılara təklif olunurdu.

Ərzaq təhlükəsizliyinin təmin olunmasında meyvə-tərəvəz məhsullarının uzun müddət saxlanılmasına imkan verən soyuducu anbarların yaradılması mühüm əhəmiyyət daşıyır. Hazırda muxtar respublikada ümumi tutumu 12 min 150 ton olan 19 soyuducu anbar fəaliyyət göstərir. Baxış zamanı qeyd olunmuşdur ki, torpaq mülkiyyətçilərinin tələbatdan artıq istehsal etdikləri kənd təsərrüfatı məhsullarının soyuducu anbarlara qəbulu ilin bütün fəsillərində daxili bazarın keyfiyyətli yerli məhsullarla təminatına şərait yaradır.





Muxtar respublikada yerli resurs və xammallarla işləyən, ixrac qabiliyyətli məhsullar istehsal edən sənaye müəssisələrinin yaradılmasına diqqət artırılmışdır. Artıq muxtar respublikanın ərzaq təhlükəsizliyinin təminatında qida sənayesinin xüsusi payı vardır. Yarmarkada sənaye məhsulları üçün ayrıca satış yeri ayrılmışdı.

Ali Məclisin Sədri öz məhsullarını bazara çıxaran torpaq mülkiyyətçiləri ilə görüşmüş, muxtar respublikada əkinçiliyin inkişafı üçün yaradılan şəraitdən səmərəli istifadə edilməsinin vacibliyini vurğulamışdır. Torpaq mülkiyyətçiləri kənd təsərrüfatı məhsullarının istehsalı və satışı üçün yaradılan şəraitə, göstərilən qayğıya görə minnətdarlıq etmişlər.

Yarmarkaya muxtar respublika üzrə, ümumilikdə, 265 təsərrüfat subyekti tərəfindən 146 adda, 240 çeşiddə məhsul çıxarılmış və bazar qiymətlərindən 15-20 faiz ucuz satılmışdır. Məhsullar satışa çıxarılmazdan əvvəl sanitar-gigiyena nəzarətindən keçirilir, ət və süd məhsullarında baytarlıq müayinəsi aparılır. Həmçinin burada Naxçıvan Muxtar Respublikası İqtisadiyyat və Sənaye Nazirliyinin “İstehlak Mallarının Ekspertizası Mərkəzi” Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən səyyari laboratoriya xidməti göstərilir.

Ali Məclisin Sədri yarmarkaların davam etdirilməsi, daxili bazarın qorunması, tələbatdan artıq istehsal olunan məhsulların soyuducu anbarlara təhvil verilməsi, kənd təsərrüfatı və sənaye məhsullarının keyfiyyətinin daim nəzarətdə saxlanılması barədə tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvanda “Muzey günləri” keçirilir

Muzeylər tariximizin və mədəniyyətimizin təkcə saxlanc yeri deyil, həm də təbliğ edildiyi məkanlardır. Bir xalqın sahib olduğu muzeylərin zənginliyi həmin xalqın tarixinin və mədəniyyətinin zənginliyindən xəbər verir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***“Muzeylər bizim tariximizi, mədəniyyətimizi özündə qoruyub gələcəyə daşıyır. ...Lakin iş muzeylərin yaradılması ilə bitmir, onların daim zənginləşdirilməsinə, tamaşaçıların muzeylərə cəlb olunmasına da ciddi diqqət yetirilməlidir”.***

Elə bu məqsədlə də muxtar respublikada mərkəzi icra hakimiyyəti orqanları üçün “Muzey günləri” tərtib olunub. “Muzey günləri”ndə mərkəzi icra hakimiyyəti orqanlarının əməkdaşları Naxçıvan şəhərindəki muzeylərə gedir, görkəmli şəxsiyyətlərin həyat və fəaliyyətini, tariximizi, mədəniyyətimizi, milli dəyərlərimizi özündə əks etdirən eksponatlarla tanış olurlar. Bu tədbirin keçirilməsində məqsəd muxtar respublikada fəaliyyət göstərən muzeylərlə ictimaiyyət arasında əlaqənin möhkəmləndirilməsindən, görkəmli şəxsiyyətlərimiz, qədim tariximiz və zəngin mədəni irsimiz haqqında kollektivləri məlumatlandırmaqdan ibarətdir.

Sentyabrın 27-də Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzinin kollektivləri “Xan Sarayı” Dövlət Tarix-Memarlıq Muzeyində olmuşlar.

Məlumat verilmişdir ki, muzey Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2010-cu il 23 oktyabr tarixli Sərəncamı ilə yaradılmışdır. “Xan Sarayı”nın binası yenidən qurulmuş, bu mədəniyyət müəssisəsinin fəaliyyəti üçün lazımi arxiv materialları və digər sənədlər toplanaraq muzeyə verilmişdir. 2010-cu il dekabrın 17-də “Xan Sarayı” Dövlət Tarix-Memarlıq Muzeyinin açılışı olmuşdur. Muzeyin yaradılmasında əsas məqsəd Azərbaycanın milli dövlətçilik tarixində xüsusi yer tutan Naxçıvan xanlığının tarixinin öyrənilməsi və təbliğidir.

Kollektivlər həmçinin hədiyyələr mağazası və qədim musiqi alətlərinin hazırlanması sexinin fəaliyyəti ilə də tanış olmuşlar.

Həmin gün Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar və Ədliyyə nazirliklərinin əməkdaşları Heydər Əliyev Muzeyində, Naxçıvan Muxtar Respublikası Prokurorluğunun əməkdaşları Naxçıvan Dövlət Tarix Muzeyində, Ombudsman Aparatı və Dövlət Gömrük Komitəsinin əməkdaşları Açıq Səma Altında Muzeydə, Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi və Daxili İşlər Nazirliyinin kollektivləri Ədəbiyyat Muzeyində, Naxçıvan Muxtar Respublikası Vergilər və Maliyyə nazirliklərinin kollektivləri “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksində, İqtisadiyyat və Sənaye Nazirliyinin kollektivi Nəqliyyat Nazirliyinin əməkdaşları ilə birlikdə Dövlət Xalça Muzeyində olmuşlar.

**“Şərq qapısı”**

# “90 il. Naxçıvan Muxtar Respublikası” miniatür kitabının təqdimat mərasimi keçirilmişdir

*Sentyabrın 29-da Heydər Əliyev Muzeyində Naxçıvan Muxtar Respublikasının 90 illiyinə həsr olunmuş “90 il. Naxçıvan Muxtar Respublikası” miniatür kitabının təqdimat mərasimi keçirilmişdir.*

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının rəhbəri Əli Həsənov kitabın işıq üzü görməsi münasibətilə ziyalıları, muxtar respublika oxucularını təbrik etmiş, kitabın ərsəyə gəlməsində əməyi olanlara Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun təşəkkürünü çatdırmışdır.






Bildirilmişdir ki, 2014-cü il Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən muxtar respublikada “Muxtariyyət ili” elan olunub. Azərbaycan Respublikasının Prezidenti “Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinin keçirilməsi haqqında” 2014-cü il yanvarın 14-də Sərəncam imzalayıb. Həmin Sərəncamın icrası ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 17 yanvar tarixli Sərəncamı ilə “Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinə həsr olunmuş Tədbirlər Planı” təsdiq olunub. Tədbirlər planında digər tədbirlərlə yanaşı, muxtar respublikanın 90 illiyinə həsr olunmuş kitabların nəşri də nəzərdə tutulmuş, ötən dövr ərzində “Naxçıvan tarixi” çoxcildliyinin I cildi, “Naxçıvan Muxtar Respublikası – 90” statistik toplusu, “Qədim-yeni Naxçıvanım”, “Naxçıvan xalq musiqisi” və digər kitablar nəşr olunmuşdur. Hazırda “Naxçıvan Muxtar Respublikasının yubileyləri”, “Naxçıvan tarixi” çoxcildliyinin II cildi, “Naxçıvan Muxtar Respublikasının təşkili: tarix və müasirlik” kitabları və “Naxçıvan 1924-2014” fotoalbomu nəşrə hazırlanır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının rəhbəri demişdir ki, 2014-cü il aprelin 8-də Naxçıvan şəhərindəki Heydər Əliyev Sarayında Naxçıvan Muxtar Respublikasının yaradılmasının 90 illiyi hörmətli Prezidentimizin iştirakı ilə dövlət səviyyəsində qeyd olundu. Yubileylə bağlı “Naxçıvan Muxtar Respublikası – 90” kitabı və “Naxçıvan” jurnalının xüsusi nömrəsi hazırlanaraq işıq üzü gördü. Bu günlərdə Azərbaycan Respublikası “Kitab” Cəmiyyətinin xətti ilə çap olunan “90 il. Naxçıvan Muxtar Respublikası” adlı miniatür kitab da muxtar respublikanın yubileyinə həsr olunmuş növbəti çap məhsuludur. Azərbaycan Respublikası Prezidentinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdəki çıxışlarının öz əksini tapdığı, eləcə də fotoşəkillərin yer aldığı miniatür kitab Naxçıvan Muxtar Respublikasının yubileyinə layiqli töhfədir.

Sonra tədbirdə Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru, dosent Fəxrəddin Səfərli, Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri Asim Əliyev çıxış edərək nəfis tərtibatla çap edilən miniatür kitabın işıq üzü görməsini əlamətdar hadisə kimi dəyərləndirmişlər.

“90 il. Naxçıvan Muxtar Respublikası” kitabının naşiri və tərtibatçısı, Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi Zərifə Salahova muxtariyyətinin 90 illik yubileyini qeyd edən Naxçıvanın yüksək sürətlə inkişaf etdiyini, sosial-iqtisadi inkişafına görə Azərbaycanda liderliyini qoruduğunu, bütün sahələrdə nümunə göstərdiyini bildirmişdir.

Kitabın təqdimat mərasiminin Naxçıvan şəhərindəki Heydər Əliyev Muzeyində keçirilməsinin onun üçün böyük mənəvi dəyəri olduğunu qeyd edən Zərifə Salahova ulu öndər Heydər Əliyevin həyatının hər anında canı qədər sevdiyi Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvana, onun inkişafına, təhlükəsizliyinin təminatına xüsusi diqqət yetirdiyini diqqətə çatdırmışdır.

Tədbirin sonunda Zərifə Salahova “90 il. Naxçıvan Muxtar Respublikası” miniatür kitabını Heydər Əliyev Muzeyinə hədiyyə etmişdir.

Qeyd edək ki, yüksək poliqrafik üslubda, nəfis tərtibatda çap olunan kitabda Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin “Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinin keçirilməsi haqqında” 2014-cü il yanvarın 14-də imzaladığı Sərəncam, 2014-cü il aprelin 8-də Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin nitqi, həmin tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun çıxışı, dövlət başçısının “Naxçıvan Muxtar Respublikasının sosial və iqtisadi inkişafında xidmətləri olan şəxslərə fəxri adların verilməsi haqqında” və “Naxçıvan Muxtar Respublikasının sosial və iqtisadi inkişafında xidmətləri olan şəxslərin “Tərəqqi” medalı ilə təltif edilməsi haqqında” sərəncamları yer almışdır. Azərbaycan Prezidenti cənab İlham Əliyevin 2014-cü il aprelin 7-də Naxçıvana səfəri çərçivəsində iştirak etdiyi tədbirlərdən, açılış mərasimlərindən, görüşlərdən çəkilmiş fotoşəkillər də miniatür kitaba daxil edilmişdir.

**“Şərq qapısı”**

# Kredit sisteminin təşkilinə həsr olunmuş təlim kursu

*Naxçıvan Dövlət Universitetində “Tədrisin kredit sisteminə uyğun qurulmasının əsasları” mövzusunda keçiriləcək biraylıq təlim kursuna start verilib. Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi ilə birgə təşkil olunan təlim kursu orta ixtisas təhsili müəssisələrinin müəllimləri üçün nəzərdə tutulub.*



Təlim kursunun açılış mərasimində çıxış edən universitetin tədris işləri üzrə prorektoru, filologiya üzrə fəlsəfə doktoru, dosent Surə Seyid son illər Azərbaycanda aparılan təhsil islahatlarından, əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş təhsil strategiyasının uğurlarından, dünya təhsil sisteminə inteqrasiyanın əhəmiyyətindən bəhs edib. Qeyd olunub ki, Naxçıvan Dövlət Universiteti 2009-cu ildən Boloniya sisteminə qoşulub və 2012-ci ildən bu sistemin tətbiqinə başlanılıb. Hazırda ali məktəbdə Boloniya sisteminin tam tətbiqi istiqamətində bir sıra işlər görülür. Tədris işləri üzrə prorektor iyulun 18-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində təhsil müəssisələrində tədrisin vəziyyəti və qarşıda duran vəzifələrlə bağlı keçirilən müşavirədə tədrisin keyfiyyətinin yüksəldilməsi ilə bağlı qarşıya qoyulan tələblər barədə məlumat verərək muxtar respublikada fəaliyyət göstərən orta ixtisas təhsili müəssisələrində də Boloniya sisteminə keçməyin zəruriliyini vurğulayıb.

Naxçıvan Muxtar Respublikası təhsil nazirinin müavini Məmməd Qəribov regionda ali və orta ixtisas təhsilinin inkişafına göstərilən hərtərəfli dövlət qayğısından, bu sahədə əldə olunan nailiyyətlərdən danışıb. Nazir müavini Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Orta ixtisas təhsili müəssisələrində kredit sistemi ilə tədrisin təşkili Qaydaları”nın təsdiq edilməsi haqqında 26 dekabr 2013-cü il tarixli Qərarının icrası ilə bağlı qarşıda duran vəzifələri diqqətə çatdırıb. Bildirilib ki, təlim kursu bu sahədə olan mövcud çətinliklərin aradan qaldırılması məqsədilə təşkil olunub.

Təlim kursunun ilk məşğələsində universitetin tədris işləri üzrə prorektoru, dosent Surə Seyid “Orta ixtisas təhsili müəssisələrində kredit sistemi ilə tədrisin təşkili qaydaları” mövzusunda məruzə edib. Məruzədə kredit sistemi əsasında formalaşmış tədris prosesinin təşkilinin ümumi müddəaları, əsas səciyyəvi xüsusiyyətləri, sənədləşmə, qiymətləndirmə prinsipləri barədə məlumat verilib. Naxçıvan Dövlət Texniki Kollecinin və Naxçıvan Musiqi Kolleci müəllimlərinin iştirakı ilə disput şəklində keçən ilk təlim zamanı suallar cavablandırılıb, müəyyən məsələlərə aydınlıq gətirilib.

Qeyd edək ki, biraylıq kurs zamanı kredit sistemində tədris-metodik təminat, tədris prosesindəki yeniliklər, yay məktəbinin təşkili qaydaları, tyutorların iş prinsipləri, tələbə və müəllimlərin mobilliyinin təmin olunması və digər mövzularla bağlı təlimlər keçiləcək. Təlim kursunun sonunda fərqlənən müəllimlərə universitetin sertifikatları təqdim olunacaq.

# Ümumdünya Turizm Günü qeyd olunub

*Naxçıvan şəhərindəki Möminə xatın türbəsinin ətrafında Ümumdünya Turizm Günü münasibətilə tədbir keçirilmişdir. Tədbiri Naxçıvan Muxtar Respublikasının mədəniyyət və turizm naziri Sarvan İbrahimov açaraq qeyd etmişdir ki, 1980-ci ildən başlayaraq Birləşmiş Millətlər Təşkilatı yanında fəaliyyət göstərən Ümumdünya Turizm Təşkilatının Baş Assambleyasının qərarı ilə hər il sentyabrın 27-si “Ümumdünya Turizm Günü” kimi qeyd olunur. 2001-ci ildən ölkəmizdə də Ümumdünya Turizm Günü qeyd olunmağa başlanmışdır.*



“Ölkəmizdə turizm sahəsinin əsaslı inkişafı və turizm şəbəkələrinin genişləndirilməsi ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır”, – deyən nazir əlavə etmişdir ki, müstəqilliyimizin ilk illərində turizmin dövlət tənzimlənməsi sisteminin təkmilləşdirilməsi turizm fəaliyyətinin məqsəd, prinsip və vəzifələrinə cavab verən yeni yanaşma tələb edirdi. Ulu öndər 27 iyul 1999-cu ildə “Turizm haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Fərman imzalamışdır. Bu qanun Azərbaycan Respublikasında turizm bazasının hüquqi əsaslarının bərqərar edilməsinə yönəldilmiş dövlət siyasətinin prinsiplərini, turizm fəaliyyətinin əsaslarını müəyyən edir və turizm sahəsində meydana çıxan münasibətləri tənzimləyir, sosial-iqtisadi inkişafı təmin edən vasitələrdən biri kimi turizm ehtiyatlarından səmərəli istifadə olunması qaydalarını müəyyənləşdirir.

Vurğulanmışdır ki, bu gün Azərbaycanda turizmin inkişafı üçün böyük işlər görülür. Ölkə başçısı cənab İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü siyasət nəticəsində respublikamızda turizm sahəsi böyük uğurlar qazanır və inkişaf edir. Məhz bu inkişafın nəticəsidir ki, ölkənin bütün regionlarında yeni turizm obyektləri tikilir, mədəni-tarixi qoruqlar yaradılır və bərpa edilir. Ölkə Prezidentinin 2010-cu il 6 aprel tarixli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında 2010-2014-cü illərdə turizmin inkişafına dair Dövlət Proqramı”nın uğurlu icrası sosial-iqtisadi sahədə irəliləyişə səbəb olmuş, turizm sektorunun ölkə iqtisadiyyatının aparıcı sahələrindən birinə çevrilməsinə şərait yaratmışdır.

Sonra Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin şöbə müdiri Gülbuta Babayeva “Naxçıvan Muxtar Respublikasının turizm potensialı”, İqtisadiyyat və Sənaye Nazirliyinin şöbə müdiri Emin Zeynalov “Turizmin iqtisadiyyata təsiri”, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Mətbuat və ictimaiyyətlə əlaqələr üzrə baş məsləhətçisi Elçin Kazımov “Naxçıvan Muxtar Respublikasının ekoloji turizm imkanları və bu sahədə görülmüş işlər” mövzularında çıxışlar etmişlər.

Çıxışlarda qeyd olunmuşdur ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun diqqət və qayğısı sayəsində son dövrlər diyarımızda turizmin inkişafına yönəlmiş mühüm tədbirlər həyata keçirilir. Son illər turizm infrastrukturunun yaradılması istiqamətində xeyli işlər görülmüş, istirahət və əyləncə kompleksləri istifadəyə verilmiş, müalicə müəssisələri əsaslı şəkildə yenidən qurulmuş, müasir tələblərə cavab verən mehmanxanalar tikilmiş, tarixi abidələr bərpa edilərək əvvəlki görkəminə qaytarılmışdır.

Sonda Şərur Xalq Yallı Ansamblının çıxışı olmuşdur.

**Əli RZAYEV**

# Pedaqoji təcrübənin başlanğıc konfransı

Naxçıvan Dövlət Universitetində 2014-2015-ci tədris ilinin birinci semestrinə aid pedaqoji təcrübənin başlanğıc konfransı keçirilib. Universitet kollektivinin, Təhsil Nazirliyinin əməkdaşlarının, təcrübəçi tələbələrin iştirak etdiyi konfransı universitetin tədris işləri üzrə prorektoru, filologiya üzrə fəlsəfə doktoru, dosent Surə Seyid açaraq pedaqoji təcrübənin təşkilinə aid müasir tələblər haqqında danışıb. Bildirilib ki, ali təhsil müddətində qazanılan nəzəri bilikləri təcrübədə möhkəmləndirmək, peşə vərdişlərinə yiyələnmək baxımından pedaqoji təcrübənin əhəmiyyəti böyükdür. 2014-2015-ci tədris ilində Naxçıvan Dövlət Universitetinin 272 tələbəsi muxtar respublikanın 17 tam orta məktəbində pedaqoji təcrübə keçəcək. Tələbələr Naxçıvan şəhər tam orta məktəbləri ilə yanaşı, Naxçıvan Qızlar Liseyində, Babək rayonunun Şəkərabad, Şıxmahmud və Kərimbəyli kənd tam orta məktəblərində də təcrübədə olacaqlar. Surə Seyid həmçinin pedaqoji təcrübə zamanı dərslərin informasiya-kommunikasiya texnologiyaları vasitəsilə keçilməsinin, tərbiyəvi tədbirlərin təşkilinin əhəmiyyətindən, tələbələrin, metodistlərin, məktəb müdiriyyətinin üzərinə düşən vəzifələrdən də danışıb.



Naxçıvan Şəhər Təhsil Şöbəsinin müdiri Hüseyn Məmmədyarov çıxışında muxtar respublikada orta təhsilin inkişaf səviyyəsindən, bu sahəyə göstərilən dövlət qayğısından bəhs edib, ali və orta ixtisas təhsili müəssisələrinin birgə fəaliyyətlərinin tədrisin və təhsilin yüksək səviyyədə qurulmasında mühüm rol oynadığını bildirib. Qeyd olunub ki, pedaqoji təcrübə müddətində tələbələrin muxtar respublikanın tam orta məktəblərində pedaqoji prosesi əyani şəkildə öyrənmələri, bilik və peşə vərdişlərinə yiyələnmələri üçün hər cür şərait yaradılıb.

Konfransda universitetin Beynəlxalq münasibətlər və xarici dillər fakültəsinin dekanı Qurban Qurbanlı “Pedaqoji təcrübə dövründə qarşıda duran vəzifələr”, Azərbaycan dilçiliyi kafedrasının dosenti, metodist Arifə Zeynalova “Metodistlərin təcrübə dövründə yerinə yetirəcəyi işlər haqqında məlumat”, Pedaqogika və psixologiya kafedrasının baş müəllimi Solmaz Bayramova “Təcrübə dövründə pedaqogika və psixologiya üzrə görüləcək işlər” mövzularında çıxışlar ediblər. Konfrans iştirakçılarına pedaqoji təcrübənin sonunda təhvil veriləcək sənədlər, qiymətləndirmə meyarı, açıq dərslərin təşkili barədə məlumat verilib.

**Mehriban SULTAN**

# Son 19 ildə hər anın hədəfi: qədim diyarımızın gələcəyini təmin etmək!

***Hər bir xalqın firavan gələcəyinin qurucuları uşaqlardır. Məhz buna görə də müasir dövrdə hər bir dövlətin qarşıya qoyduğu ali məqsəd yeni nəsli gələcəyə sağlam əqidə koordinatlarında bilikli, təhsilli hazırlamaqdır. Təcrübə göstərir ki, uşaqların hərtərəfli inkişafına xidmət edən siyasət yürüdən, mövcud potensialı bu yöndə səmərəli şəkildə səfərbər edən ölkələr milli tərəqqiyə nail olur və dünya arenasında özünə layiq yer tuturlar. Naxçıvan Muxtar Respublikası da öz gələcək inkişafını təbii sərvətlərin gətirdiyi dividendlərə bağlamır, mövcud resurslarını yeni nəslin sağlam inkişafı müstəvisində qurur.***

Uşaqların iqtisadi cəhətdən inkişaf etmiş bir regionda böyüdülməsi, həyati ehtiyaclarının lazımi qaydada ödənilməsi onların inkişafının vacib şərtidir. Əlbəttə, bunun üçün insanların maddi rifah halının yüksəldilməsi gərəkdir. Muxtar respublikada sosial, iqtisadi və kommunal infrastrukturun inkişafının təmin edilməsi, əhalinin mənzil təminatında irəliləyişə nail olunması, əmək bazarında səmərəli tənzimləmə mexanizminin yaradılması, məşğulluq probleminin aradan qaldırılması, kənd yerlərində yaşayan əhalinin kənd təsərrüfatını inkişaf etdirməsi üçün onlara lazımi maddi və texniki köməkliyin göstərilməsi əhalinin gəlirlərinin yüksəlməsi ilə nəticələnmişdir. Son 19 ildə muxtar respublika əhalisinin gəlirlərinə nəzər salsaq, dəfələrlə artım müşahidə etmiş olarıq. Təkcə cari ilin yanvar-avqust aylarında muxtar respublikada əhalinin gəlirləri 2013-cü ilin müvafiq dövrü ilə müqayisədə 3,1 faiz artaraq 1 milyard 92 milyon 215 min manatdan çox olmuş, onun hər bir nəfərə düşən həcmi isə 1,5 faiz yüksələrək 2499,6 manat təşkil etmişdir.

Ekoloji mühitin təmizliyinin sağlam uşaqların doğulmasına və onların düzgün inkişafına zəmin yaratdığı uzun zamandır ki, öz təsdiqini tapmışdır. Sağlam gələcək naminə hər ilin yaz, yay və payız fəsillərində iməciliklərin keçirilməsi ənənə halını almışdır. Keçirilən iməciliklər muxtar respublikamızın yaşıllıqlar diyarına çevrilməsində böyük rol oynamışdır. Bu təkcə təbiətin qorunması kimi başa düşünülməməlidir, eləcə də yeni nəslin təmiz ekoloji mühitdə nəfəs alması, yaşaması deməkdir. Başqa sözlə, yeni yaşıllıqların salınması xalqımızın gələcəyinə, daha sağlam nəsillərin yetişməsinə hesablanmışdır.

Uşaqların istedadlarının üzə çıxarılması, intellektual və mənəvi inkişafı, asudə vaxtlarının və tərbiyəsinin düzgün təşkili, cəmiyyətin ictimai-mədəni həyatında iştirakını sürətləndirmək məqsədilə son 19 ildə muxtar diyarımızda mühüm tədbirlər həyata keçirilmişdir. Muxtar respublikada fəaliyyət göstərən M.T.Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrı, Naxçıvan Dövlət Uşaq Teatrı, Uşaq Filarmoniyası kimi mədəniyyət ocaqları, Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzi, Naxçıvan Muxtar Respublikası Estetik Tərbiyə Mərkəzi, Şahmat Mərkəzi və onlarla digər məktəbdənkənar tərbiyə müəssisəsi uşaqların asudə vaxtlarının səmərəli təşkilində mühüm rol oynayır. Adıçəkilən bu uşaq müəssisələrində və qeyd etmədiyimiz onlarla belə müəssisələrdə uşaq aləminə uyğun, onların bacarıq və istedadlarını inkişaf etdirə biləcək şərait yaradılmışdır.

Muxtar respublikada xüsusi istedada malik olan uşaqların aşkarlanması, onların yaradıcılığı üçün müvafiq şəraitin yaradılması dövlətimizin uşaqlar barəsində həyata keçirdiyi siyasətin tərkib hissəsidir. Bu çərçivədə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvan Muxtar Respublikasında gənc istedadlara dövlət qayğısının artırılması haqqında” 2012-ci il 31 yanvar tarixli Fərmanına uyğun olaraq, “Gənc istedadların “Qızıl kitabı”nın yaradılması və onlara xüsusi təqaüdlərin təsis edilməsi istedadlı uşaqlara göstərilən qayğının ifadəsidir. İstedadlı uşaqlara göstərilən dövlət qayğısı öz bəhrəsini verməkdədir. Ötən il muxtar respublikanın istedadlı yeniyetməsi olan Rauf Murtuzovun Serbiya Respublikasının Novi-Sad şəhərində keçirilən məktəblilər arasında Avropa çempionatında birinci yerə layiq görülməsi buna ən yaxşı nümunədir. Bu, muxtar respublika məktəblisinin bizimlə eyni qitəni bölüşən dövlətlərin həmyaşıdları üzərində zəka, ağıl qalibiyyətidir.

Fiziki sağlamlıqlarının möhkəmləndirilməsi üçün yüzlərlə uşaq və yeniyetmə muxtar respublikada fəaliyyət göstərən 2 olimpiya-idman kompleksindən, 2 üzgüçülük hovuzundan, 9 kompleks idman qurğusundan lazımınca yararlanır, ölkədaxili və ölkədənkənar yarışlarda nailiyyətlər qazanırlar. Son illər regionumuzda keçirilən beynəlxalq yarış və turnirlər yeniyetmə idmançılarımıza stimul verir, onları böyük arenalarda qələbə qazanmağa hazırlayır. Əlbəttə, xalqın gələcək varlığı üçün fiziki cəhətdən güclü olmaq vacibdir. Uşaq və yeniyetmələrimizin fiziki sağlamlığı olduqca vacib məsələdir. Bu baxımdan idmanın inkişafına göstərilən dövlət dəstəyi və uşaqların kütləvi şəkildə idmana cəlbi alqışlanmalı olan uzaqgörənlikdir.

Məktəbəqədər təhsil təhsilin ilk pilləsi olub, ailənin və cəmiyyətin maraqlarına uyğun olaraq, uşaqların erkən yaş dövründən intellektual, fiziki və psixi inkişafını, sadə əmək vərdişlərinə yiyələnməsini, istedad və qabiliyyətinin üzə çıxarılmasını, sağlamlığının qorunmasını, estetik tərbiyəsini, təbiətə və insanlara həssas münasibətinin formalaşmasını təmin edir. Məktəbəqədəryaşlı uşaqların uşaq bağçalarından yetərincə yararlanması, bu sahədə təhsilin müasir tələblər səviyyəsində qurulmasının təmin olunması da muxtar respublikada diqqət mərkəzindədir. Hazırda muxtar respublikada fəaliyyət göstərən 17 uşaq bağçasından 16-sı tam müasir bina ilə təmin olunmuş, müvafiq avadanlıqlar, o cümlədən oyuncaq və idman avadanlıqları, müxtəlif təlim vəsaitləri balaca fidanların istifadəsinə verilmişdir.

Sarsılmaz dövlətə və arzuolunan cəmiyyətə malik olmağın ən başlıca yollarından biri yeni nəslin təhsil səviyyəsindən çox asılıdır. Əlbəttə, peşəkar kadrların yetişdirilməsinə nail olan, milli düşüncənin formalaşmasını təşviq edən təhsil sistemi dövlətin milli maraqlarına cavab verməklə onun bütün sahələrində dayaqlarını möhkəmləndirir və nüfuzunu yüksəldir. Keyfiyyət əsaslı təhsil prinsipinin rəhbər tutulması ilə uşaqların düzgün istiqamətdə formalaşmasına hədəflənmiş tədrisin təşkilinin əhəmiyyəti böyükdür. Bu mənada muxtar respublikamızda uşaqların mükəmməl təhsil almalarına xüsusi önəm verilir. Təhsilin inkişaf etdirilməsi üçün məqsədyönlü tədbirlər diqqət mərkəzində saxlanılır, hər il yeni məktəb binaları inşa olunur, təhsil ocaqlarının maddi-texniki bazaları gücləndirilir, ümumtəhsil məktəblərinin I-XI sinif şagirdlərinə pulsuz kitablar verilir, məktəbli yarmarkaları keçirilir. Ümumtəhsil məktəblərində 84 faizi internetə qoşulmaqla artıq hər 12 şagird bir kompüter dəsti ilə təmin edilmiş, 600-ə yaxın elektron lövhə quraşdırılmışdır. Bu il məktəbi yüksək qiymətlərlə bitirən məzunlardan 14-ü “Qızıl”, 13-ü isə ”Gümüş” medala layiq görülmüşdür. Ali və orta ixtisas məktəblərinə qəbul imtahanlarında iştirak etmiş məzunlardan 1725 nəfəri tələbə adını qazanmışdır. 1995-1996-cı tədris ilində bu rəqəm 674 olmuşdur. Ali məktəblərə builki qəbul imtahanlarında 500-700 intervalında bal toplayan naxçıvanlı abituriyentlərin sayı bir qədər də artaraq 347 nəfərə çatmışdır. Müqayisə üçün bildirək ki, bu rəqəm 2004-cü ildə 67 nəfər olmuşdur. Builki qəbulun nəticələrinə görə, 231 nəfər 500-600, 88 nəfər 600-650, 28 nəfər 650-700 intervalında bal toplamışdır. Orta və yaşlı nəslin nümayəndələri yaxşı xatırlayarlar ki, ötən əsrin 90-cı illərinin əvvəllərində uçuq-sökük məktəb binalarında uşaqları ruhlandıran, təhsilə bağlayan amil tapılmırdı. Ancaq indi təhsil almaq, daha yaxşı oxumaq və nəticələr əldə etmək uğrunda uşaqlar arasında rəqabət var, mübarizə və əzmkarlıq istəyi var. Bu gün ucqar dağ kəndləri və sərhəd yaşayış məntəqələri məktəblərinin yuxarı sinif şagirdləri ali təhsil almaq üçün onlarla universitetin təhsil mexanizmini əzbər bilir, seçim edir, bir sözlə, gələcəyini düşünür. Halbuki 90-cı illərin əvvəllərində bu məktəblərin şagirdləri heç ali təhsil haqqında düşünmürdülər. Daha doğrusu, şərait və ağır yaşayış buna imkan vermirdi.

Yeni təhsil obyektlərinin inşası prosesinin yüksək dinamikası, müasir çağırışlara uyğun maddi-texniki bazanın təkmilləşdirilməsi, qazanılan nailiyyətlər muxtar respublikanın gələcəyi ilə bağlı əsaslı fikir söyləməyə imkan verir, yeni nəsli əsl insan kapitalı nəsli kimi xarakterizə etməyə heç bir şübhə yeri qoymur.

Muxtar respublikada iqtisadiyyatın sürətli inkişafı, sosial sahələrə diqqətin artırılması, əhalinin məşğulluğunun təmin edilməsi məqsədilə həyata keçirilən tədbirlər nəticəsində yeni iş yerlərinin açılması, adambaşına düşən gəlirlərin ilbəil artması əhalinin, o cümlədən hər bir ailənin sosial vəziyyətinin yaxşılaşmasına zəmin yaratmışdır. Qeyd olunanlar dövlət uşaq müəssisələrində dövlət himayəsində təhsil və təlim-tərbiyə alan uşaqların bu müəssisələrə düşməsinin qarşısının alınmasına, ailə mühitində inkişafının təmin edilməsinə geniş imkanlar yaradır. Sevindirici haldır ki, muxtar respublikada dövlət uşaq müəssisələrində atılmış uşaq yoxdur; hər iki valideynini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş uşaqlar yaxın qohumlarının himayə və qəyyumluğunda yaşayırlar. Bu kateqoriyadan olan uşaqlara ictimai diqqətin artırılması məqsədilə onlar haqqında məlumatlar Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin rəsmi internet saytına yerləşdirilmişdir. Bundan əlavə, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin qayğısı ilə hər dərs ilinin başlanğıcında aztəminatlı ailələrin uşaqlarına, hər iki valideynini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş uşaqlara, eləcə də ümumtəhsil müəssisələrində tədrisə cəlb edilmiş sağlamlıq imkanları məhdud uşaqlara pulsuz məktəbli geyimləri və ləvazimatları verilir.

Muxtar respublikada uşaqların sağlamlıq imkanları məhdudluğunun qarşısının alınması, onların cəmiyyətə inteqrasiyası, təhsili sahəsində dövlət siyasəti bu uşaqların ehtiyaclarının ödənilməsi üçün iqtisadi, sosial şəraitin yaradılmasında ifadə olunur və müvafiq dövlət proqramları vasitəsilə həyata keçirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 18 dekabr tarixli Sərəncamı ilə təsdiq olunan “2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi üzrə Dövlət Proqramı” bu qəbildən olan uşaqların cəmiyyətə inteqrasiyasında fundament olan təhsil almalarına xidmət edir.

Proqramın icrası ilə bağlı təkcə Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən ötən dövr ərzində 988 sağlamlıq imkanları məhdud uşağın valideynləri ilə əlaqə yaradılaraq maarifləndirici söhbətlər aparılmış, bu uşaqlardan 18 nəfər uşaq bağçalarına, 8 nəfər Naxçıvan Şəhər Körpələr Evi və Ailələrə Dəstək Mərkəzinə, 37 nəfər ümumtəhsil məktəblərinə (35-i I sinfə), 11 nəfər idman və şahmat məktəblərinə, 8 nəfər uşaq musiqi məktəblərinə, 5 nəfər məktəbdənkənar müəssisələrin dərnəklərinə, 7 nəfər Naxçıvan Uşaq Bərpa Mərkəzinə və 4 nəfər Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzinə cəlb olunmuşdur.

Ümumilikdə isə muxtar respublikada fəaliyyət göstərən məktəbəqədər təhsil müəssisələrində 61, uşaq musiqi məktəblərində 53, məktəbdənkənar müəssisələrin dərnəklərində 52, idman məktəblərində 46, Naxçıvan Şəhər Körpələr Evi və Ailələrə Dəstək Mərkəzində isə 13 sağlamlıq imkanları məhdud uşaq vardır.

Bütün uşaqlar kimi, sağlamlıq imkanları məhdud uşaqların da hərtərəfli inkişafı, cəmiyyətə adaptasiya və inteqrasiyası üçün müasir infrastruktur yaradılmışdır. Uşaq Bərpa Mərkəzi, Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzi, Naxçıvan Şəhər Körpələr Evi və Ailələrə Dəstək Mərkəzi hər bir sağlamlıq imkanları məhdud uşaq üçün əlçatandır. Hələ bir neçə il bundan öncə Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində Azərbaycanda ilk dəfə olaraq xüsusi proqram təminatı əsasında gözdən əlil, görmə qabiliyyəti zəif və eşitmə qabiliyyəti məhdud olan uşaqlar üçün audiokitabxana və elektron kitabxana xidmətləri yaradılmış, yeni dərs ilindən Distant Tədris Mərkəzinin fəaliyyəti təmin edilmiş, müvafiq uşaqlar bu təhsil sisteminə cəlb olunmuşlar.

Bu yaxınlarda muxtar respublikanın sosial-iqtisadi inkişafının yeni mərhələdə davam etdirilməsinə stimul verən daha bir fərman imzalandı. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 1 sentyabr tarixli Fərmanı ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”ında konkret olaraq, qarşıdakı illərdə təhsil müəssisələrinin tikintisi və əsaslı təmiri işlərinin, tədris müəssisələrinin informasiya-kommunikasiya üzrə maddi-texniki bazasının yaxşılaşdırılmasının davam etdirilməsi, xüsusi qayğıya ehtiyacı olan (sağlamlıq imkanları məhdud) uşaqların təhsilinin yaxşılaşdırılması, uşaqların sağlamlıqlarının möhkəmləndirilməsi, asudə vaxtlarının səmərəli təşkili üçün müvafiq şəraitin yaradılması istiqamətində tədbirlərin həyata keçirilməsi müəyyənləşdirilmişdir.

*Sadalanan faktlar, göstərilən nəticələr bir daha sübut edir ki, Naxçıvan Muxtar Respublikasında uşaqların mənəvi, psixoloji, sosial, fiziki inkişafına yönəlmiş məntiqli prinsiplərə əsaslanan, xeyirxah məqsədlərə bağlanan dövlət siyasəti xalqımızı daha firavan gələcəyə qovuşduracaqdır. Dövlətimizlə paralel hər birimizin borcudur ki, belə nəcib bir fəaliyyət yolunda öz səylərimizi artıraraq zəngin bilikləri ilə yanaşı, möhkəm təməllər üzərində dayanan, ənənələrimizi qoruyan, inkişaf etdirən nəsil böyüdək, cəmiyyətimizin, dövlətimizin və xalqımızın gələcəyinə fayda verək. Muxtar respublikanın son 19 ilinin qurucusu və memarı olan Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi:* ***“Uşaqlarla iş gündəlik fəaliyyət və peşəkarlıq tələb edir. Çalışmaq lazımdır ki, gələcəyimiz olan uşaqlar, ilk növbədə, xalqımıza xas olan milli dəyərlər ruhunda tərbiyə olunsunlar, təhsilli, vətənpərvər vətəndaşlar kimi yetişsinlər”.***

**Sahir RÜSTƏMOV**

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin şöbə müdiri***

## Məhəmməd Tağı Sidqinin anadan olmasının 160 illiyinə həsr edilmiş konfrans



***M.S.Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasında görkəmli pedaqoq, maarifçi, şair Məhəmməd Tağı Sidqinin anadan olmasının 160 illiyinə həsr edilmiş oxucu konfransı keçirilmişdir.***

Tədbiri Naxçıvan Muxtar Respublika Kitabxanasının direktoru, tarix üzrə fəlsəfə doktoru Aytəkin Qəhrəmanova açaraq qeyd etmişdir ki, görkəmli maarifçi, böyük mütəfəkkir Məhəmməd Tağı Sidqi xalqının, millətinin maariflənməsi uğrunda mübarizə aparan ilk maarif fədailərindəndir.

Kitabxananın Kütləvi iş şöbəsinin müdiri Yeganə Rüstəmova M.T.Sidqinin həyat və yaradıcılığı barədə məruzə etmişdir.

Bildirilmişdir ki, 1854-cü ildə Ordubad şəhərində anadan olan Məhəmməd Tağı Sidqi ilk təhsilini buradakı mədrəsədə almış, klassik Şərq poeziyasını və fəlsəfəsini öyrənmişdir. Azərbaycanda milli və dünyəvi məktəbin, maarifçilik hərəkatının inkişafına mühüm töhfələr verən, xalq müəllimi kimi böyük şöhrət qazanan Məhəmməd Tağı Sidqi 1892-ci ildə Ordubadda yeni tipli “Əxtər” məktəbi yaratmış, 1894-cü ildə Naxçıvanda “Tərbiyə” məktəbinin əsasını qoymuşdur. Bu məktəblər xalqın maariflənməsində mühüm əhəmiyyət kəsb etmiş, Naxçıvanın bütöv bir ziyalı nəslini yetişdirmişdir.

M.T.Sidqi bədii yaradıcılığa ilk gənclik illərində başlamışdır. Bu dövrdə Ordubadda Şeyxəli xan Kəngərlinin təşkil etdiyi “Əncüməni-şüəra” ədəbi məclisi Fəqir Ordubadinin rəhbərliyi ilə fəaliyyət göstərirdi. 1889-cu ildə Fəqirin vəfatından sonra məclisə Sidqi başçılıq etmiş, ədəbi fəaliyyətini də bu məclisdə davam etdirmişdir. M.T.Sidqinin rəhbərlik etdiyi “Əncüməni-şüəra” ədəbi məclisində klassik poeziyadan irəli gələn lirika mövzularına da müraciət olunurdu. Sidqi də məclisdəki bu ədəbi ənənəyə sadiq qalmış, yeri gəldikcə öz yaradıcılığında süjetli lirikaya müraciət etmişdir. Bu xüsusiyyət Sidqinin şeir yaradıcılığında müsbət rol oynamış, onun gələcəkdə həcmcə geniş süjetli bədii əsərlər və mənzumələr qələmə almasına zəmin yaratmışdır.

M.T.Sidqinin lirikasında Vətənimizin füsunkar təbiətinin təsvir və tərənnümünə həsr olunmuş peyzaj lirikası xüsusi yer tutur. Lirikanın bu növü Sidqinin yalnız qəzəllərində deyil, digər poetik formalarda qələmə aldığı şeirlərində də özünü göstərir.

Konfransda Naxçıvan Dövlət Universitetinin müəllimi, filologiya elmləri doktoru Əsgər Qədimovun, Naxçıvan Özəl Universitetinin müəllimi, filologiya üzrə fəlsəfə doktoru Nurlana Əliyevanın, Naxçıvan Dövlət Texniki Kollecinin müəllimi Səadət Qocayevanın çıxışları olmuşdur.

Sonda tədbir iştirakçıları “Məhəmməd Tağı Sidqi – 160” adlı sərgiyə baxmışlar.

✍ **Sona MİRZƏYEVA**

# Sərbəst güləş üzrə Avropa və dünya çempionu Hacı Əliyevin mükafatlandırma mərasimi keçirilib

*Sentyabrın 29-da İlham Əliyev adına Olimpiya-İdman Kompleksində sərbəst güləş üzrə Avropa və dünya çempionatlarının qalibi, həmyerlimiz Hacı Əliyevin mükafatlandırma mərasimi keçirilib. Mərasimdə əvvəlcə idmançının Avropa və dünya çempionatlarında iştirak etdiyi yarışlardan videokadrlar nümayiş etdirilib.*





Naxçıvan Muxtar Respublikası Güləş Federasiyasının sədri Azər Zeynalov tədbirdə çıxış edərək bildirib ki, əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan idman siyasəti bu gün ölkəmizdə, eləcə də muxtar respublikamızda uğurla davam etdirilir. Naxçıvan Muxtar Respublikasında idmana göstərilən yüksək diqqət və qayğı, bu sahədə müvafiq tədbirlərin həyata keçirilməsi müsbət nəticələrin əldə olunmasına şərait yaradıb. Məhz görülən işlərin nəticəsidir ki, indi muxtar respublikamızın idmançıları müxtəlif səviyyəli idman yarışlarında iştirak edir, ölkəmizi beynəlxalq səviyyədə layiqincə təmsil edirlər. Gənc idmançı, sərbəst güləş üzrə Avropa və dünya çempionu Hacı Əliyevin simasında biz bunu bir daha görürük. Azər Zeynalov beynəlxalq yarışlarda qazandığı nailiyyətlərə görə idmançını təbrik edərək ona gələcək yarışlarda müvəffəqiyyətlər arzulayıb.

Sonra qalib güləşçiyə qiymətli hədiyyə təqdim olunub.

Gənc idmançı Hacı Əliyev ona göstərilən diqqət və qayğıya görə minnətdarlığını bildirib, bundan sonra da ölkəmizi layiqincə təmsil edəcəyini vurğulayıb.

Mükafatlandırma mərasimindən sonra "Təbriz" otelində mətbuat konfransı keçirilib. Kütləvi informasiya vasitələri nümayəndələrinin suallarını cavablandıran Hacı Əliyev 2014-cü ilin onun üçün uğurlu olduğunu, məhz bu ildə həm Avropa, həm də dünya çempionu olmağından böyük sevinc hissi keçirdiyini bildirib. Ölkəmizi dünyada layiqincə təmsil etməkdən qürur duyan idmançı bundan sonra da Vətənimizin idman şərəfini fəxrlə qorumağa çalışacağını vurğulayıb.

Qeyd edək ki, Əliyev Hacı Azər oğlu 1991-ci il aprelin 4-də Naxçıvan şəhərində anadan olub. Naxçıvan güləş məktəbinin yetirməsi olan Hacı Əliyev Azərbaycan güləş tarixində ilkə imza atanlardan biridir. O, bir il ərzində sərbəst güləş idman növü üzrə 61 kiloqram çəki dərəcəsində həm Avropa, həm də dünya çempionu adını qazanıb.

**"Şərq qapısı"**

# Yaşıllıqlara qulluq göstərilməsi təbiətin zənginləşdirilməsi qədər əhəmiyyətlidir

## *Növbəti iməciliklərdə 2350 ədəd gül və bəzək kolu, meyvə və həmişəyaşıl ağaclar əkilmişdir*

Muxtar respublikamızda son illərdə yaşıllıq sahələrinin həcminin dəfələrlə artması, yurdumuzun yaşıllıqlar məskəninə çevrilməsi həyata keçirilən məqsədyönlü tədbirlər hesabına mümkün olub. Bu sahədə görülən işlərin kəmiyyət və keyfiyyətinin yüksəldilməsi istiqamətində görülən tədbirlər davamlı xarakter almış, yeni əkilən ağacların suvarılmasında damcı üsulunun tətbiqi genişləndirilmiş, xeyli meyvə bağları, yaşıllıq zolaqları salınmış, ekoloji tarazlığın qorunmasında müstəsna rola malik olan belə tədbirlərin həyata keçirilməsi prioritet vəzifəyə çevrilmişdir.

Cari ilin payız günlərində də bu tədbirlər mütəşəkkilliklə davam etdirilir, meyvə bağlarına, yaşıllıq zolaqlarına, gülkarlıq sahələrinə aqrotexniki qulluq göstərilməsi diqqət mərkəzində saxlanılır.

Sentyabrın 27-də keçirilən iməciliklər də yüksək səviyyədə təşkil olunmuşdu.

Naxçıvan şəhərinin sakinləri Babək rayonunun Nəzərabad kəndi yaxınlığındakı terrasda, Naxçıvan-Sədərək magistral yolunun kənarında yaşıllıqlara aqrotexniki qulluq göstərmiş, park və xiyabanlarda təmizlik işləri aparmışlar.

Şərur rayonunda Naxçıvan-Sədərək magistral yolunun kənarlarında, Axura yolunun Həmzəli kəndi hissəsində, Sərxanlı kəndində, rayonun park və xiyabanlarında yaşıllıqlara aqrotexniki qulluq göstərilmiş, Axura yolunun kənarlarında 150 ədəd meyvə ağacı əkilmişdir.

İməcilik günü Babək rayonunun ərazisində də qələbəlik müşahidə edilmişdir. Bölgə sakinləri Naxçıvan-Ordubad və Naxçıvan-Şahbuz magistral yolunun ətrafında, Əshabi-Kəhf ziyarətgahına gedən yolun kənarlarındakı bağlarda suvarma işləri aparmışlar.

Bağlar diyarı Ordubad rayonunda da iməciliklər mütəşəkkilliklə keçirilmiş, Naxçıvan-Ordubad magistral yolunun kənarlarında, Dəstə kəndində, Aşağı Əylis kəndinə gedən yolun kənarlarında, park və xiyabanların ərazilərində yaşıllıqlara aqrotexniki qulluq göstərilmişdir.

Culfalılar Naxçıvan-Ordubad magistral yolunun Culfa şəhəri ərazisində, park və xiyabanlarda yaşıllıqlara aqrotexniki qulluq göstərmiş, rayonun giriş hissəsindəki Bayraq Meydanında 2000 ədəd qızılgül kolu əkilmişdir.

Kəngərli rayonunun sakinləri Naxçıvan-Sədərək magistral yolunun kənarında və Xok kənd tam orta məktəbinin həyətində yaşıllıqlara aqrotexniki qulluq göstərmişlər.

Şahbuz rayonunda Naxçıvan-Batabat magistral yolunun kənarlarında salınmış bağlara aqrotexniki qulluq göstərilmiş, Şahbuz şəhərindəki 2 nömrəli tam orta məktəbin həyətinə 200 ədəd həmişəyaşıl ağac əkilmişdir.

Sədərək rayonunda Heydərabad qəsəbə tam orta məktəbinin və Mərkəzi Xəstəxananın həyətində, Qaraağac kənd yolunun kənarlarında yaşıllıqlara aqrotexniki qulluq göstərilmişdir.

Həmin gün muxtar respublikamızın bütün bölgələrində əhil vətəndaşların həyətlərində təmizlik, abadlıq işləri aparılmışdır.

Ümumilikdə, iməciliklərdə 24 min 926 nəfər iştirak etmiş, 2000 gül və bəzək kolu, 200 həmişəyaşıl ağac, 150 meyvə ağacı əkilmişdir.

**Xəbərlər şöbəsi**

# Rusiyanın nüfuzlu "Elmi fikir" dərgisində Naxçıvanın tarixi ilə bağlı iki elmi məqalə dərc edilib

*Rusiyanın Sankt-Peterburq Universitetinin "Elmi fikir" jurnalında naxçıvanlı elm adamlarının Naxçıvan tarixindən bəhs edən iki məqaləsi dərc edilib.*




Baş redaktoru akademik, Rusiya Təhsil Akademiyasının üzvü Vladimir Laptev olan jurnal əsas elmi-tədqiqat nəticələrinin və orijinal tədqiqat əsərlərinin nəşri üçün nəzərdə tutulub. Rusiya, Baltikyanı ölkələr və Azərbaycandan olan elm adamlarının 62 elmi məqaləsinin dərc edildiyi jurnalın növbəti sayında AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev və AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun elmi işçisi Elnur Kəlbizadənin "XIV əsr müəllifi Həmdullah Qəzvininin əsərində xatırlanan dörd Naxçıvan qalası haqqında" və bölmənin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun böyük elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Musa Quliyevin "Görkəmli sərkərdə Ehsan xan Kəngərli-Naxçıvanski hərbi rəssam akademik V.D.Maşkovun rəsm əsərində" adlı məqalələri də yer alıb. Birinci məqalədə XIV əsr tarixçisi Həmdullah Qəzvininin "Nüzhət əl-qülub" əsərində Naxçıvanla bağlı verilən məlumatlar, əsərdə Naxçıvan ərazisində yerləşdiyi qeyd olunan dörd qalanın (Əlincə, Sürməli, Faqnan və Tağmar qalaları) lokalizasiyası məsələlərindən bəhs olunur, həmçinin qalaların Naxçıvan ərazisində yerləşmə xəritəsi və fotoşəkillər təqdim edilir. İkinci məqalədə isə batalist rəssam Maşkovun 7 iyun 1827-ci ildə rus qoşunlarının Naxçıvandakı Abbasabad qalasını təhvil alması səhnəsini təsvir edən rəsm əsərinə və o dövrün tarixi hadisələri ilə bağlı maraqlı məqamlara toxunulur. Məqalə müəllifi arxiv sənədləri və mənbələr əsasında rəsmdə Ehsan xan Naxçıvanskinin də təsvir edildiyinə dair əsaslı dəlillər ortaya qoymuşdur.

**✍ Sona MİRZƏYEVA**

# Şərur rayonunda qadın təhsil işçilərinin profilaktik müayinələrinə start verilib

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin iş planına uyğun olaraq, təhsil işçiləri arasında süd vəzi xərçəngini vaxtında aşkarlamaq üçün cari payız mövsümünün kütləvi profilaktik mammoqrafiya müayinələrinə başlanılıb. Muxtar respublikamızda əhalinin hər bir təbəqəsinin vaxtaşırı olaraq ixtisas həkimləri tərəfindən müayinədən keçirilməsinin tərkib hissəsi olan belə müayinələr artıq ənənə halını alıb. Naxçıvan Muxtar Respublikası Onkoloji Mərkəzinin həkim-onkoloqları son iki ildə səhiyyə və mədəniyyət müəssisələrində çalışan qadınların süd vəzinin profilaktik müayinəsini başa çatdırıblar. Ötən ilin yaz və payız mövsümündə isə Naxçıvan şəhəri, Şahbuz, Babək, Kəngərli və Culfa rayonları üzrə 2000-dən çox qadın təhsil işçisinin profilaktik müayinəsi aparılıb.

Bu ilin yaz mövsümündən isə Şərur rayonunda qadın təhsil işçiləri belə müayinələrlə əhatə olunublar. Mart, aprel və may aylarında Şərur şəhər və 4 kənd məktəbində profilaktik müayinələr aparılıb. Hazırda Naxçıvan Muxtar Respublikası Onkoloji Mərkəzinin həkimləri tərəfindən Şərur rayonundakı təhsil müəssisələrində işləyən qadınlar arasında payız mövsümünün profilaktik müayinələri davam etdirilir. Qısa müddətdə İbadulla, Vərməziyar, Tumaslı və Diyadin kənd məktəblərində 91 qadın müayinədən keçirilib, süd vəzində müxtəlif patologiyalar olan 8 qadın təhsil işçisi kompleks müayinələr üçün Onkoloji Mərkəzə dəvət olunub.

Müayinələri hər həftənin çərşənbə günü həyata keçirməklə ilin sonuna qədər başa çatdırmaq nəzərdə tutulub. Növbəti müayinələr Ordubad rayonunda aparılacaq.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

# "Nuh yurdu" intellektual oyununda 16 komanda qüvvəsini sınayıb



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu, Yeni Azərbaycan Partiyasının Naxçıvan Muxtar Respublika Təşkilatının icra katibliyi, Gənclər və İdman Nazirliyi, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyi, "Gənclərin İntellektual İnkişaf Mərkəzi" İctimai Birliyinin birgə təşkilatçılığı ilə gənclərin asudə vaxtlarının səmərəli təşkil olunması, intellektual səviyyələrinin yüksəldilməsi, dünyagörüşlərinin formalaşdırılması məqsədilə Naxçıvan şəhərindəki Gənclər Mərkəzində gənclər arasında "Nuh yurdu" intellektual oyununun muxtar respublika birinciliyi keçirilib. Birincilikdə 16 komanda qüvvəsini sınayıb. Finala vəsiqə qazanmış "Bakı", "Əlincə", "Odlar yurdu" və "Naxçıvan" komandaları arasında gedən gərgin mübarizə nəticəsində "Bakı" komandası ən yüksək xal toplayaraq birinci yerə layiq görülüb. Birincilikdə I, II və III yerləri tutmuş komandalara təşkilatçılar tərəfindən diplom, fəxri fərman və qiymətli hədiyyələr təqdim olunub.

**✍ Ceyhun MƏMMƏDOV**

# Ahıllar Əshabi-Kəhf ziyarətgahını ziyarət ediblər

Muxtar respublikamızda ahıllara göstərilən dövlət qayğısı günbəgün artır. Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin təşkilatçılığı ilə muxtar respublikada ahıllara müxtəlif sosial xidmətlər göstərilir, onların cəmiyyətə inteqrasiyası, habelə asudə vaxtlarının səmərəli təşkili istiqamətində ardıcıl tədbirlər həyata keçirilir.

1 oktyabr – Beynəlxalq Ahıllar Günü münasibətilə nazirlik tərəfindən təşkil edilən silsilə tədbirlər bu istiqamətdə həyata keçirilən tədbirlərin davamıdır.

Əhalinin Sosial Müdafiəsi mərkəzləri tərəfindən sosial xidmət göstərilən 33 tənha ahılın muxtar respublikamızın müqəddəs yerlərindən sayılan "Əshabi-Kəhf" Ziyarətgahı Dini-Mədəni Abidə Kompleksinə ziyarəti təşkil edilib.

Əshabi-Kəhfi ziyarət edən tənha ahıllara qurban payları təqdim olunub, həmçinin onlar üçün çay süfrəsi açılıb.

Ziyarətgahdan xoş ovqatla ayrılan ahıllar onlara göstərilən diqqət və qayğıya görə dövlətimizə minnətdarlıqlarını bildiriblər.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***


ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Elnur Kəlbizadə
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 834